# Uşaqlar üçün Müqəddəs Kitab

təqdim edir

# İsa və Lazar



Müəllif: Edward Hughes

İllüstrasiya edən: Janie Forest

Uyğunlaşdıran: Ruth Klassen

Tərcümə edən: Günay Əsədova

Təqdim edən: Bible for Children
www.M1914.org

©2017 Bible for Children, Inc.
Lisenziya: Bu kitabı satmamaq şərti ilə kitabın surətini çıxarda bilmək hüququna maliksiniz.

Məryəm və Marfa narahat idilər. Onların qardaşı Lazar çox ağır xəstələnmişdi. Bacıları Lazarın tezliklə öləcəyini bilirdilər.



Onlar İsanın yanına
adam göndərdilər.
İsa Bet-Anyadan
olan bu kiçik
ailəni sevirdi.



İsa Lazar haqqında eşidəndə Öz şagirdlərinə dedi: “Bu xəstəliyin nəticəsi ölüm deyil”.  Baxmayaraq ki, İsa çox uzaqda idi, O, Lazarla nə baş verəcəyini dəqiq bilirdi.



İsa
Bet-Anyaya
getməzdən əvvəl
iki gün gözlədi.




Sonra O, şagirdlərini çaşdıran bir şey dedi: “Lazar ölüb. Sizin inanmağınız üçün orada olmadığıma şadam”. Bu qəribə sözlər nə demək idi?
İsa nə etməyə hazırlaşırdı?



İsa Bet-Anyaya gələndə Lazar artıq dörd gün idi ki, ölmüşdü.

Onun cəsədini kəfənə büküb mağara kimi qəbirə qoymuşdular.

Marta İsanı qarşılamağa getdi. İsa dedi: “Qardaşın diriləcək”. Marta cavab verdi: “Bilirəm, dirilmə günü, son gündə o da diriləcək”.



O fikirləşirdi ki, Lazarı yenidən görmək üçün son günə qədər gözləməlidir.  Amma İsa başqa şey demək istəyirdi.





İsa Martaya dedi: “Dirilmə və həyat Mənəm. Mənə iman edən ölsə də yaşayar”.



Marta İsaya inandı. O bilirdi ki, İsa Allahın Oğludur. Bəs O, Lazara necə kömək edə bilərdi?

Hər kəs çox kədərli idi, çünki Lazar ölmüşdü.  Onun bacısı Məryəm ağlayırdı. Ona təsəlli verməyə çalışan dostları da həmçinin. İsa da ağladı.



İsa adamlarla qəbirin yanına getdi. Qəbirin girişində böyük bir daş var idi.




İsa əmr etdi: “Daşı kənara çəkin”. Marta dedi: “Ya Rəbb, artıq iylənib, çünki öldüyü dörd gündür”.


İsanın
əmri ilə adamlar
daşı götürdülər.
Sonra İsa Öz
Səmavi Atasına dua
etdi.  Allahın Onu
göndərdiyinə
xalqın inanması
üçün İsa
böyük ...


... möcüzə göstərmək üzrə idi. İsa bərkdən qışqırdı: “Lazar, bayıra çıx!” Xalq yəqin ki, heyrətlə mağaraya baxırdı.
İsa ölü adamı dirildə bilərdimi?


BƏLİ! Lazar hər yeri dəsmalla sarınmış halda mağaranın içindən SAĞ çıxdı!


İsa dedi: “Onu açın və buraxın getsin. Orada necə də sevinc var idi! Göz yaşları gülüşə döndü.


İsa Öz Sözünə əməl etdi. Lazar yenidən sağ idi. Yalnız Allahın Oğlu ölü adama həyat verə bilərdi.

Bu möcüzəni görən bir çox adam İsaya inandı. Ancaq digərləri Onu məbəd rəhbərlərinə öz düşmənləri kimi təqdim etdilər.



Paxıllıqdan onlar İsanı öldürmək üçün süi-qəsd qururdular.  İsa bunu biləndə bir müddətlik oradan uzaqlaşdı.



# İsa və Lazar

Allahın Sözü, Müqəddəs Kitabdan olan bir hekayədir

Yəhya 11

“Kəlamının açıqlanması nur saçır”.
Məzmur 119:130


Son

Bu Müqəddəs Kitab hekayəsi bizə, bizi yaradan və Onu tanımağımızı istəyən Allahımızdan bəhs edir.

Allah, Onun günah adlandırdığı pis şeyləri etdiyimizi bilir. Günahın cəzası ölümdür, lakin Allah səni o qədər çox sevir ki, O, Öz yeganə Oğlunu, İsanı Çarmıxda ölmək və sənin günahlarına görə cəzalandırılmaq üçün göndərdi. Sonra İsa dirildi və Göylərə getdi! Əgər sən İsaya inansan və Ondan günahlarını bağışlamasını diləsən, O, bunu edəcək!; O indi gələcək və daxilində yaşayacaq və sən əbədiyyən Onunla birlikdə yaşayacaqsan.

Əgər sən bunların həqiqət olduğuna inanırsansa, onda bunu Allaha de: Əziz İsa, mən inanıram ki, Sən Allahsan və mənim günahlarıma görə ölmək üçün insan oldun və indi Sən yenidən yaşayırsan.  Xahiş edirəm, həyatıma gəl və mənim günahlarımı bağışla ki, mən indi yeni həyata malik ola və bir gün Səninlə birlikdə əbədiyyən yaşaya bilim.  Sənə itaət etməkdə və Sənin övladın kimi yaşamaqda mənə kömək et.  Amin.

**Müqəddəs Kitabı oxu və hər gün Allahla danış!   Yəhya 3:16**